# Səfir Vada Cüniçi Füzuli rayonunda həyata keçirilmiş “Ot Kökləri” Yardım layihələrinin ərazisinə baxış həyata keçirdi

7 iyul tarixində səfir Vada Cüniçi 2019-cu il “Ot kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardımı Proqramı çərçivəsində həyata keçirilmiş “Füzuli rayonunun Şükürbəyli kəndinin su təminatı sistemi ilə təchiz edilməsi” layihəsinin ərazisinə baxış keçirmək məqsədilə Füzuli rayonuna səfər etmişdir. Füzuli rayonunun Şükürbəyli kəndində təchiz olunmuş içməli su sistemi 2020-ci ilin iyun ayından əhalinin istifadəsinə verilmişdir.

Baxış zamanı Səfir, “Bu layihənin icrası nəticəsində sözügedən kənd əhalisinin təmiz içməli su ilə təmin olunduğuna çox şad oldum. Biz, Azərbaycanın bölgələrdəki yerli əhalisinin yaşayış şəraitinin daha da yaxşılaşdırılması istiqamətində töhvələrin verilməsini əsas tuturuq. Bu niyyətimizi, bu layihənin icrası vasitəsilə Füzuli rayonunun əhalisinə çatdıra biləriksə, buna çox sevinərəm” deyə qeyd etdi.






